**DOI:** https://doi.org/10.59849/2957-3882.2023.1.69
**UOT : 821.512.161**

# TÜRK TARİXİ ROMANLARINDA QADIN OBRAZLARI

**Arzu DADAŞOVA***

***Açar sözlər:*** *türk ədəbiyyatı, roman, qadın, tarixilik*

## XÜLASƏ

Bəşəriyyət yaranandan onun ayrılmaz hissəsi olan qadın ta qədim zamanlardan tarix səhnəsində öz varlığını isbatlamışdır. Qadın haqqında ilk fikirlər dini mətnlərdə öz əksini tapmışdır. Dini kitablarda, xüsusilə də "Qurani- Kərim"in "İnsan" surəsinin 38-39-cu ayələrində, "Bəqərə" surəsinin 35-ci ayəsində qadından bəhs olunur.

Qadın mövzusu istər şifahi, istərsə də yazılı ədəbiyyatda öz əksini tapmışdır. Türk romanlarında qadınların həyatı, siyasi vəziyyəti, təhsili, sosial mədəni halı haqqında çox az yazılmışdır. Xüsusilə də roman janrının ən maraqlı və mübahisəli növlərindən olan tarixi romanlarda əsas qəhrəmanlar kişilər olduğundan, qadınlar adətən onların kölgəsində görünməz qalmışdır. Lakin buna baxmayaraq tarixi romanlarda öz qəhrəmanlığı, igidliyi, sədaqəti, döyüşkənliyi ilə türk ərlərindən geri qalmayan qadın obrazları ilə də qarşılaşmaq mümkündür.

Araşdırmanın tədqiqat obyektini Osmanlının quruluş tarixindən bəhs edən T.Buğranın "Osmancık", M.N.Sepetçioğlunun "Konak" tarixi romanındakı qadın obrazları təşkil edir. Burada tarixi dövrdə türk cəmiyyətində qadının yeri və rolu araşdırılmışdır.

Digər cəmiyyətlərdə olduğu kimi türklərdə də qadın cəmiyyətin vacib ünsürü kimi qarşımıza çıxır. Türk tarixində qadının cəmiyyətdəki yeri, rolu, vəzifəsi yaşanan tarixi dövrə və mədəniyyət dairəsinə görə müxtəliflik göstərir.

İslamdan əvvəlki dövrdə qədim türklərdə etibarlı bir mövqedə olan türk qadını daha sonrakı dövrdə sosial-siyasi həyatda baş verən dəyişikliklər nəticəsində tədricən sosial həyatdan kənarlaşdırılmışdır.

İslamdan əvvəlki dövrdə köçəri həyat keçirən bozqır mədəniyyətinə sahib türklərdə qadın kişilərlə bərabər hüquqlara sahib olmuş, hökmdar, şair, təbib, kahin kimi vəzifələri tutmuşdur. Qadınlar kişilərlə birgə at minib, ox atmış, qılınc oynadıb döyüşlərə birgə qatılmışlar.

Zamanla oturaq həyata keçən, İslam dinini və mədəniyyətini qəbul edən türk cəmiyyətində yavaş-yavaş qadınların sosial həyatdakı rolu passivləşmişdir. Mədəniyyət dəyişikliyi ilə türk qadınının cəmiyyətdə bir çox haqq və statuslarının itirilməsi Osmanlının son dövrlərinə təsadüf edir.

Türk cəmiyyətində qadının yeri və rolunu əlimizə gəlib çatan şifahi və yazılı ədəbiyyat nümunələri əsasında öyrənmək mümkündür.

M.Kaşğarinin "Divanü Lüğət-it Türk" əsərində qadın sözü: kayın, kayın ağacı formasında göstərilmişdir. Katun isə dişilik bildirməklə yanaşı ünvan bildirən sözdür. Katun: Əfrasiyab soyundan olan bütün qadınların ünvanı olmuş, "katunlanmak" isə xatun paltarında gəzmək deməkdir. (3, s.413)

Qədim türklərdə qadının cəmiyyətdə yüksək mövqe tutduğunu türk dastanlarından da görmək mümkündür. Türklərin yaradılış haqqında ən qədim inanclarına görə Tanrı Kayra Xana kainatın yaradılması fikrini verən "Ak Ana" adlı gözəl bir qadın xəyalıdır. (1, s.2). Yenə "Oğuz" dastanındakı Oğuzun anası işıqdan törəmiş müqəddəs varlıqlar olaraq göstərilmişdir.

* *AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu*
*E-mail: d.arzu@bk.ru*

Yazılı ədəbiyyatın ən vacib nümunələrindən sayılan Orxon abidələrində Bilge Kağanın “Tanrı türk milleti məhv olmasın, millət olsun deyə atam İlteriş Kağanı, anam İlbilge Hatunu tutub göyün təpəsinə qaldırır” sözləri türk qadınına olan etibarı ortaya qoyur. Bir millətin var olması və soyunun davam etməsi baxımından qadının nə qədər vacib olmasından xəbər verir. (3, s.413)

“Dədə Qorqud” hekayələrində isə sosial həyatda qadın kişilərlə bərabər eyni statusa malik təsvir edilmişdir. Bamsı Beyrəyin və Qanturalının həyat yoldaşlarını təsvir edərkən “mən yerimdən qalxmadan o qalxmış olmalı, mən atıma minmədən o minmiş olmalı, mən qanlı kafir elinə çatmadan o, çatmış mənə baş gətirmiş olmalı” sözləri bizə qadınların igidlikdə ərlərindən geri qalmadığının sübutudur. Qadınlar da öz növbəsində seçdikləri ərlərində igidlik keyfiyyətlərinin olmasına xüsusi əhəmiyyət verirlər. Təsadüfi deyil ki, Banuçiçək Bamsı Beyrəyə özünü tanıtmadan öncə onu ox atmada, at minmədə, güləşdə sınayır.

“Dədə Qorqud” hekayələrində ananın oğula, oğulun anaya olan sevgisi qəhrəmalnıq yaradacaq səviyyədədir. “Dədə Qorqud” hekayələrindəki qadın ərinin arxasında olan, lazım gəldikdə onunla çiyin-çiyinə vuruşan, at minib, ox atmağı bacaran qadındır. Sadalanan bu qəhrəmanlıqlarla yanaşı qadının ərinə olan sədaqəti də türklərdə böyük dəyərə malikdir.

Çin, fars, yunan, latın mənbələrində daha çox eşq, şəhvət timsalı olaraq görülən qadın türklərdə sosial həyatın bütün sahələrində kişilərlə birgə tutulmuşdur. Bundan başqa türk xaqanları dövlət işlərində xatunları ilə məşvərət edib, onlarla məsləhətləşmişlər.

Qədim türklərdə yüksək mövqe və siyasi haqlara sahib olan türk qadınları Qaraxanlı, Səlcuq və Osmanlı dövründə də qismən də olsa siyasi, ictimai, hüquqi mövqelərini qoruyub saxlamışlar. Hətta Səlcuqlu və Anadolu bəylikləri dövründə qadın əsgərlərin olduğu da məlumdur. XV əsrin əvvəllərində Dulkadir bəyliyində sayı 30 mindən 100 minə qədər olduğu deyilən türkmən qadın qüvvətlərinin varlığından bəhs olunur. Aşıq Paşanın “Tevârih-i Âl-i Osman” adlı əsərində Qaziyân-ı Rum, Abdâlân-ı Rum, Ahiyân-ı Rum ve Bâciyân-ı Rum olmaqla 4 qrupdan bəhs edilir. Türk-İslam mədəniyyəti bu qrupların könüllü xidmətləri sayəsində şərqdən qərbə doğru yayılmağa başlamışdır.

Bâciyân-ı Rum Anadoluda kişilərlə yanaşı qadınların da təşkilatlandığını göstərən qrupdur. Köprülü qeyd edir ki, silahlı və cəngavər türkmən qadınlarına Ahi Evrenin qızı Fatma Bacı başçılıq etmişdir. (3, s.419) Bu xanımlar bir çox elmlərə yiyələnmiş hətta müxtəlif əl sənətlərini və toxuculuğu da bilən qadınlar olaraq şəhər, kənd, hətta ucqarlarda yaşayan qadınlara at minməyi, ox atmağı, ov etməyi də öyrətmişlər. Onlar ana, həyat yoldaşı olmaqla yanaşı həm də cəsur bir döyüşçü idilər. K.Tahirin “Devlet Ana” romanında qarşımıza çıxan Rum bacılarının rəhbəri olan Bacı Bəy Ərtuğrul bəydən başqa kimsənin sözünü dinləməzdi. Yazıçı romanı onun adıyla Devlet Hatun adlandırmışdır. Bir yandan sərt görünüşü, digər yandan isə qoruyucu himayədarlığı ilə seçilən Devlet Hatun Osmanlı dövlətinin simvolu kimi göstərilmişdir. T.Buğranın Osmancık romanında da Rum bacılarının obrazına rast gəlirik. Romanda Osman bəyin yanında olan ona məsləhət və tövsiyyələr verən Gökçe Bacı onunla birgə döyüşlərdə çiyin-çiyinə vuruşur. M.N.Sepetçioğlunun “Konak”, “Çatı”, “Üçler Yediler Kırklar” trilogiyasında Rum bacıları Aybüken Ebe obrazı ilə təmsil olunur.

Səlcuq xatunları arasında Toğrul Bəyin xanımı Altuncan Xatun, Alpaslanın bacısı Gevher Xatun, Məlikşahın xanımı Terken Xatun idarəetmə və sosial həyatın bütün sahələrində seçilən qadınlardan olmuşlar. Daha sonralar siyasi həyatın dəyişməsi və hərəm həyatına üstünlük verilməsi ilə qadınlar daha çox sosial və mədəni fəaliyyətlərlə məşğul olmağa başlayıb, məscid, hamam, kitabxana, mədrəsə, tibb məktəbi tikdirirlər. Osmanlı dövründə qadınlar dövlətin idarəsinə deyil, hökmdar üzərində olan nüfuzlarından istifadə etməklə verilən qərarlarda təsirli olmuşlar.

Osmanlı dövründə saray qadınları xanədanlar arası evliliklər etməklə sülhə və yeni torpaqların qazanılmasına səbəb olmuşlar. Germiyanoğlu Süleyman Şahın qızı olan Devletşah Xatun Yıldırımın xanımı olmaqla Kütahya, Tavşanlı və Simavı cehiz olaraq Osmanlı torpaqlarına qatmışdır.

Türk qadının statusundakı geriləmə Osmanlının Ərəb, Fars və Bizans imperiyaları ilə olan əlaqələrinin artması nəticəsində baş verir.

Fatih dövründən etibarən türk qadını xüsusilə də saray şəhər qadınları evə qapadılmışdır. 1892-ci ildə Əbdülhəmid dövründə qadınlar yalnız çarşafla çölə çıxa bilərdilər. II Əbdülhəmid isə qara

çarşaf, qara incə əlcək geyən qadınların yas tutan xristian qadınlara bənzədiyini əsas gətirərək çarşaf geyməyi qadağan etmişdir. 1882-ci ildə qadınlar siyahıya alınmada ümumi əhali sayına aid edilmişdir.

Tənzimat dövründən sonra qadının cəmiyyətdə yeri dəyişməyə başlayır. Osmanlının dağılmasının qarşısını almaq üçün müasirləşmə mərhələsinin başlanması cəmiyyətdə qadının rolunu dəyişmişdir. Tənzimat dövründə İstanbula gələn xarici qadınlar türk qadını üçün bir modelə çevrilir. Xüsusilə də Misirli zəngin qadınlar İstanbul qadınlarının alafranga avropasayağı yaşamaq həvəsini artırır. (4, s.50) Tənzimat dövründə qadının cəmiyyətdə rolunun dəyişməsində yazıçı və ziyalıların da rolu böyükdür. Türk romanının yaradıcılarından olan A.M.Efendi romanlarında qadının təhsilindən, haqq və hüquqlarından, azadlıqlarından onun cəmiyyətdəki yerindən bəhs edir. N.Kamal da 1862-ci ildə Təsviri Əfkarda nəşr olunan "Terbiye-i Nisvan Hakkında birkaç Layiha" adlı məqaləsində qadın təhsilinin vacibliyindən bəhs edir. (4, s.50)

**Tarixi romanda qadın obrazları**

Türk ədəbiyyatında qadın yazıçı və şairlərin sayca az olması, kimi ilk dövrlərdə yazılan romanlarda da qadın obrazlarının azlığı diqqət çəkir. Mövzunun tarixi romanlar kontekstində araşdırıldığını nəzərə aldıqda nəticənin heç də ürəkaçan olmadığını görürük. Ümumilikdə götürsək tarixi romanlarda qadın obrazları azlıq təşkil edir. Adətən bu qadınlar kişilərin kölgəsində təsvir olunmuşlar.

Təsadüfi deyil ki, tədqiqatçı A.H.Tampınar qadının cəmiyyətdə zəif mövqedə olmasını türk romanın inkişaf etməməsi ilə əlaqələndirərək qeyd edir: "Bizdə romanın inkişaf etməmə səbəblərindən biri qadının cəmiyyət içərisində olmamasıdır. Bunu həyatın qapalı və təktərəfli, qadınsız, əksik olması ilə izah edir." (6, s.62)

**"Osmancık" romanında qadın**

Türk ədəbiyyatında XX əsrin II yarısından sonra tarixi roman yazıçıları arasında Tarık Buğranın xüsusi yeri vardır. Müəllifin tədqiqata cəlb olunmuş "Osmancık" romanında Osmancığın simasında Kayı boyunun böyüyərək bəyliyə daha sonra isə Osmanlı dövlətinə çevrilməsindən bəhs olunur. Romanda dövlətin quruluşu fərdin mənəvi təkamülü və kamilləşməsi üzərindən ələ alınmışdır.

Osmanlının quruluş tarixindən bəhs edən "Osmancık" romanının əsas diqqət çəkən qadın obrazları Malhun Hatun, Cankız, Gökçe Bacı, Ayna Mələkdir. Romandakı qadın obrazlarının əsas xüsusiyyəti onların ideal ana və həyat yoldaşı olmalarıdır.

"Osmancık" romanında Osmancığın mənəvi təkamül keçirərək kamilləşib, Osmancıqdan Osman Bəyə və Osman Qazi Xana çevrilməsinin təməlində Malhun Xatun dayanır. Əsərdə Malhun Xatun Osmancığın ideal şəxsiyyətə çevrilməsində motivasiya ünsürü olaraq təsvir edilmişdir. Osman Bəy onun sevgisi sayəsində dəyişərək kamilləşə bilir. Məhz Malhun Xatuna olan sevgisi Osmancığı cahana hökm edən dövləti qurmağa güc verir.

Osmancıq Edebalinin təkkəsində onunla görüşmək üçün gözlədiyi müddətdə bir yuxu görür. O, yuxuda Edebalinin sinəsindən çıxan bir ayın öz sinəsinə girdiyini görür. Onun sinəsinə girən ay böyük bir çinar ağacı şəklində böyüyərək bütün dünyaya qol budaq atır. Yuxuda Edebalinin sinəsindən çıxan on beş günlük Ay Malhun Xatuna, çinar simvolu isə onun quracağı dövlətə işarədir.

Osmancıq duyğularını Malhun Xatuna açaraq ona evlənmə təkif edir, Malhun Xatun bu təklifi qəbul etsə də, Edebali qızını ona vermək istəmirdi. Çünki Edebali gənc və sadəlövh Osmancığın daxilən arınaraq "Bəy" adına layiq olması üçün ona sınaq müddəti təyin etmişdir. Bir neçə dəfə rədd edilən Osmancık müəyyən zaman sonra öz istəyini ehtiras və israrla Edebaliyə yenidən bildirir. Osmancıq yolu qaranlığa düşdükdə bu yolları işıqlandıran Malhun Xatun üçün Edebaliyə "Edebali mən ulduzlara necə gedəcəyimi və o yolu açmaq üçün mənə nə lazım olduğunu bildim. O yollara Zümrüd Anka lazımdır, Edebali. Mənim Zümrüd Ankam Malhun Xatundur. Onu mənə ver ki, dünyanı kiçildə bilim" -deyə müraciət edir. (2, s.99) Əsərdə Malhun Xatun Osmancığın ifadəsi ilə Zümrüd Anka olaraq simvollaşdırılır. Burada Zümrüd Anka isə özünü arayışın simvoludur. Göründüyü kimi Osmancığın saflaşaraq arınmasında özünü yenidən tapmasında Malhun Xatun ona yoldaşlıq edir.

Malhun Xatun eyni zamanda Kayı qadınları arasında ən çox qonaq qəbul edən, ən çox işləyən, ən çox fədakarlıq edən və gündəlik həyatını məhdud imkanlarla, nümayişkaranəlikdən uzaq davam etdirən xatunlardandır.

Romanın digər qadın obrazlarından olan Ərtuğrul Bəyin həyat yoldaşı Cankız Osmanı at üstündə əmizdirən, döyüşdə düşmənə sapan atan, mal-qara sağan, yun əyirən, xalça toxuyan, aş bişirən, nehrə çalxalayan qadın olaraq təsvir edilmişdir. Cankız ana həm də öz müdrikliyi və təcrübəsi ilə oğluna yol göstərir onu dövlətə layiq bir bəy kimi yetişməsində onu dəstəkləyir. Hətta ölüm döşəyində olduqda belə Osmana qardaşları kimi igid, ağıllı, səbrli, qoçaq olmağı məsləhət görür. Ölüm döşəyində olan Cankız Ana nəvələrinə "Allah ata ananıza gaza günlərinizi göstərsin"- deyərək dua edir.

Osman isə anası Cankızın xatirəsini yaşatmaq üçün yeni doğulan qızına onun adını qoyur və bu zaman Malhun xatundan icazə istəməyi də unutmur. Bu da oğuzlarda qadına olan hörmətin göstəricisidir.

Osmanın qardaşı Savcı Bəyin xanımı Ayna Mələyin simasında əri və oğlu şəhid olan ana və həyat yoldaşı obrazını görürük. Əvvəlcə oğlu Baykocanın, sonra isə əri Savcı Bəyin şəhid xəbərini alan Ayna Mələk, evini, yuvasını, ocağını tərk edib ata evinə getməyən mətanətli, cəsur türk qadınıdır. "Ərimin ocağını sönməyə qoymaram"- deyərək qızı Banu Çiçəyin igid atasının evindən gəlin köçməsini arzulayır.

Romanda müdrik türk qadınını təmsil edən obrazlardan biri də Uruz dervişin anası Gökçe Bacıdır. Osman Bəy onun fikir və tövsiyyələrinə xüsusi əhəmiyyət vermişdir. Gökçe Bacı onda olan gücü və iradəni bildiyi üçün "Osmancık Bəy olsun" deyə həmişə dua etdiyini ona söyləmişdir. Gökçe bacı Osmanın igid, cəsarətli, çevik davranışına və lider şəxsiyyətinə inamını ifadə edərək onun "müdrik" olduğunu vurğulayır.

Əsərdə qadınların əsas vəzifəsi döyüşən ərlərinin yanında olaraq onlara mənəvi dəstək versələr də, lazım gəldikdə onlarla çiyin-çiyinə düşmənlə savaşmaqdan da çəkinmirlər. Osman Bəyin Biləciklilərlə etdiyi döyüşdə qadınların da silah alaraq onlarla döyüşməsinə şahid olmaq mümkündür.

Kayı boyunun gənc qızları ərlərini özləri seçirlər. Belə ki, Emine Osmanın qardaşı Savcı Bəyin oğlu Bay Kocaya "al kaftan" göndərərək ona öz sevgisini bildirmiş olur. Bu adət türk cəmiyyətində qadınların azad hüquqlarından xəbər verir.

Romanda türk qadının fədakarlığı və adət-ənənələrə bağlılığı da diqqət çəkir. Dodurqa Bəyi Qara Günenin qardaşı qızı Kutlu Mələk Kayı boyundan olan Rahmanı sevsə də, bu iki boy arasında olan düşmənlikdən dolayı öz sevgisindən vaz keçməsi türk qadının fədakarlığını göstərir.

Bizans qadınlarından olan Evdoksiya və Holofira isə öz sevgiləri uğruna dinlərini dəyişərək öz istəkləri ilə islamı qəbul edərək müsəlman olub, türk adət-ənənələri ilə yaşamağa başlayırlar. Əsərdə Kayının bütün qadınları ağrı-acılar qarşısında böyük bir dözümlülük, səbir göstərərək yeni ideallar üçün həyatda qalmağa çalışan möhkəm iradəli qadınlar olaraq yaddaşlarda qalmışdır.

**"Konak" romanında qadın**

Osmanlının quruluş tarixindən bəhs edən romanlardan biri də M.N.Sepetçioğlunun "Konak" romanıdır. Roman M.N.Sepetçioğlunun "Osmanlı Üçlemesi"nin ilk romanıdır. Roman qəhrəmanlarından olan Kumral Dede Anadoluya gələrək burada konak (malikanə) inşa edir. Osmanlı dövlətinin qurulması da bu konakla (malikanə) eyniləşdirilərək təsvir edilir.

Romanın əsas qadın obrazları arasında Ərtoğrul Bəyin xanımı Haymə Ana yer alır. Əsərdə Haymə Ana da Cankız kimi igid, qeyrətli, qayğıkeş, fədakar həyat yoldaşı və ana kimi təsvir edilmişdir. Ərtoğrul Bəy vəfat etdiyində Dündar Bəyin arvadı ağılar deyərək hay-haray qoparır. Bu Hayme Ananın xoşuna gəlmir. Hayme Ana dərhal onu susdurur. "Adətlərimiz dəyişib ki? Ərtoğrul kimi bəyə ağlanmamalıdır"- deyərək onu evinə yollayır. Bu səfər Dündar Bəyin arvadı Bay Kocaya ağılar deməyə başlasa da, yenə susdurulur. "Bay Koca kimdir? O, Ərtoğrul Bəyin nəvəsidir. O, şəhid olmuşdur. Gözün bir dənə də qadın görməsin. Igidi igidlər dəfn edər." deyərək ortalığı sakitləşdirir. (5, s.280-281)

Ölüm döşəyində olan Ərtoğrul Bəy Haymə Anadan oğul nəvəsinin olması xəbərini aldıqda onun əlini axtarıb sinəsi üstünə qoyaraq, Malhun Xatunun necə olduğunu xəbər alır. Ərtoğrul Bəyin Hayme Anaya onun da əlləri sənin əllərin kimi Osmanımın ürəyinin üstündən əksik olmasın deməsi ailədə qadına verilən dəyərdən xəbər verir. Həm də burada türk qadınının necə böyük sevgi ilə ərlərini sevdiklərinə şahidi oluruq.

Dalaman Kumral Dədənin yanına gələn qadını izləyərkən paltar yuyan qadınların seyrinə dalır. Ona hədə qorxu gələn Hamzaya yanındakı qadınlara güvəndiyini sual etdikdə " Sən Söyüt bacılarının burda paltar yuduqlarına baxma, onların necə at minib qılınc oynatdığını bilmirsən deyəsən" cavabını alır. (5, s.230) Bu cavabdan sonra Dalaman qarşısındakı qadınlardan qorxub geri çəkilməli olur.

"Konak" romanının qadın obrazları arasında Rum Bacılarından olan Aybüken Ebe də diqqət cəlb edən qəhrəmanlardandır.

İslamdan əvvəlki dövrdə köçəri həyat sürən türk cəmiyyətində qadınlar kişilərlə bərabər hüquqlara sahib olmuş, onlarla birgə at sürüb, qılınc oynatmış döyüşlərə qatılmışlar. Əlimizə gəlib çatan şifahi və yazılı ədəbiyyat nümunələri türk cəmiyyətində qadının rolunun və statusunun mühim olmasından xəbər verir. Qədim türklərdə etibarlı bir mövqedə olan türk qadını daha sonrakı dövrdə sosial-siyasi həyatda baş verən dəyişikliklər nəticəsində tədricən sosial həyatdan kənarlaşdırılmışdır. Mədəniyyət dəyişikliyi ilə türk qadınının cəmiyyətdə bir çox haqq və statuslarının itirilməsi Osmanlının son dövrlərinə təsadüf edir.

Tədqiqata cəlb edilmiş Osmanlının quruluş tarixindən bəhs edən romanlardakı qadın obrazlarının simasında ərlərinin yanında olaraq onlara mənəvi dəstək verən, ev-eşiklərini idarə edən, lazım gəldikdə onlarla çiyin-çiyinə düşmənlə savaşmaqdan da çəkinməyən, namuslu, fədakar türk qadınını görmək mümkündür.

## ƏDƏBİYYAT


1. Banarlı, N, S. (1971). Resimli Türk Edebiyatı Tarihi, İstanbul.
2. Buğra T. (1995). Osmancık, İstanbul, Ötüken
3. Duran H. (2018). Türk Kadınına Tarihi Açıdan Bakmak. Türkiye Sosyal Araştırmalar Dergisi, cild 22, sayı 2.
4. Karabulut M. (2013). Tanzimat Dönemi Türk Romanında Kadın Üzerine Tematik Bir İnceleme, Erdem dergisi, Sayı:64, Haziran, s.49-69
5. Sepetçioğlu. M.N. (1992). Konak, İstanbul,Veli yayınları
6. Tampınar A.H. (2000). Edebiyat Üzerine makaleler, Dergah yayınları, İstanbul


## РЕЗЮМЕ

***Арзу ДАДАШОВА***

***Образы женщин в турецких исторических романах***

***Ключевые слова**: турецкая литература, роман, женщина, история*

С самого начала человечества женщина, составлявшая его неотъемлемую часть, с древних времен доказывает свое присутствие на исторической сцене. Первые представления о женщинах нашли отражение в религиозных текстах. Женщины упоминаются в религиозных книгах, особенно в стихах 38-39 суры Инсан и стихе 35 суры Аль-Бакара "Священного Корана".

Тема женщины отражена как в устной, так и в письменной литературе. В турецких романах очень мало написано о женской жизни, политическом положении, образовании, социальном и культурном статусе. Особенно в исторических романах, которые являются наиболее

интересными и противоречивыми типами романного жанра, поскольку главными героями являются мужчины, в их тени обычно незаметны женщины. Однако, несмотря на это, в исторических романах можно встретить женские персонажи, не уступающие своим турецким мужьям своим героизмом, отвагой, верностью и боевым духом.

Объектом исследования являются женские персонажи в историческом романе «Османджик» Т.Бугры и «Конак» М.Н.Сепетчиоглу повествующем об истории Османской империи. Здесь исследуется место и роль женщины в турецком обществе в исторический период.

## SUMMARY

***Arzu DADASHOVA***

### *Images of Women in Turkish Historical Novels*

***Keywords:*** *Turkish literature, novel, woman, historicalness*

Since the beginning of mankind, woman who has been an inseparable part of humanity has continued its presence on the stage of history since ancient times. The first ideas about women were reflected in religious texts. Women are mentioned in religious books such as “Quran”, especially in the verses 38$^{th}$-39$^{th}$ of Surah *Insan* and verse 35$^{th}$ of Surah *Al-Baqara*.

The theme of women is reflected in both oral and written literature. Very little has been written about women's life, political state, education, social, and cultural status in Turkish novels. Especially in historical novels, which are the most interesting and controversial types of the novel genre, since the main characters are men, women are usually invisible in their shadow. However, despite this, in historical novels, it is possible to encounter female characters who are not inferior to their Turkish husbands with their heroism, bravery, loyalty, and fighting spirit.

The research object of the article is the female characters in the historical novel "Osmancık" by T.Buğraa and "Konak" by M.N.Sepetçioğlu which tells about the history of the Ottoman Empire. Here, the place and role of women in the Turkish society in the historical period are investigated.